# Cahit BAĞÇI: "Faciənin ilk dəqiqələrindən Azərbaycanın Türkiyənin yanında olduğunu bütün dünya bilir"

"Millətimizin yaşadığı bu dağıdıcı zəlzələdə həyatını itirən vətəndaşlarımıza Allahdan rəhmət diləyirəm. Millətimizin başı sağ olsun, ölənlərin ailələrinə, yaxınlarına səbir diləyirəm. Prezident Rəcəb Tayyip Ərdoğanın liderliyi ilə Türkiyənin bütün qurumları təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün çalışır. Allahın izni ilə bu ağır günləri ən qısa zamanda geridə qoymaq üçün canla-başla çalışırıq. Azərbaycanın faciənin ilk dəqiqələrindən yanımızda olduğunu bütün dünya bilir. Bunun üçün sizə ürəkdən təşəkkür edirik".



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı söyləyib.

Diplomat qeyd edib ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları ilə başda Heydər Əliyev Fondu olmaqla Azərbaycanın bütün ictimai qurumları hərəkətə keçiblər. Zəlzələnin baş verdiyi andan etibarən geyim, qida məhsulları, yorğan, adyal, isidici və digər yardımları bu günə qədər Türkiyəyə çatdırırıq. Bu vaxtadək Azərbaycandan Türkiyəyə 750 tondan çox qida göndərilib.

"Zəlzələ nəticəsində evləri dağılan vətəndaşlarımızın bu qış günlərində isti yerə, çadıra və konteyner evlərə ehtiyacı var. Bunun üçün Türkiyədə çadır, konteyner istehsalı davam edir. Azərbaycan da bu ehtiyacımızı bilərək konteyner istehsalına başladı. Azərbaycanın müxtəlif qurumları tərəfindən humanitar fəaliyyətlər davam edir. İcra hakimiyyətlərinə təşəkkürümü bildirirəm, bizə çox kömək göstərirlər, Azərbaycanın ürəyinin Türkiyə ilə birgə döyündüyünü göstərirlər. Azərbaycanda nümayiş etdirilən birliyə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edirik", - deyə diplomat bildirib.

Azərbaycan.- 2023.- 18 fevral.- S. 4.